# Kim evlənə bilirsə, evlənsin. Çünki evlənmək, gözü naməhrəmlərə baxmaqdan, ayıb yerlərini isə zinadan qoruyur. Kim evlənə bilmirsə, oruc tutsun. Həqiqətən oruc şəhvəti qırır

Abdullah bin Məsuddan (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Biz Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanında idik və o, belə dedi: "Kim evlənə bilirsə, evlənsin. Çünki evlənmək, gözü naməhrəmlərə baxmaqdan, ayıb yerlərini isə zinadan qoruyur. Kim evlənə bilmirsə, oruc tutsun. Həqiqətən oruc şəhvəti qırır".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) cinsi yaxınlıq və nikah yükünə (ailəni dolandırmağa) qadir olanları evlənməyə təşviq etmişdir, çünki, o haramlara baxmaqdan qoruyur və cinsi orqanı hifz edir və əxlaqsızlığa düşməyə maneə olur. Kimin nikah yükünə gücü çatmaz, lakin cinsi əlaqəyə qadir olarsa, o kəs isə oruc tutsun, çünki o cinsi orqanın şəhvətini kəsir və məninin şərrinin qarşısını alır.

https://www.sunnah.global/hadeeth/az/show/5863

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee